Heysəm ibn Muhəmməd Sərhan

أحكام صيام رمضان

# RAMAZAN ORUCUNUN EHKAMLARI



أحكام صيام رمضان

# RAMAZAN ORUCUNUN EHKAMLARI

Rəbbinin yoluna DƏVƏT ET

BAKI 2023

## Müəllif:
# Şeyx, dr. Heysəm Sərhan

Səudiyyə Ərəbistanı Mədinə şəhəri Müqəddəs Peyğəmbər Məscidinin nəzdindəki İnstitutun (www.gph.edu.sa) keçmiş müəllimi, **"Sünnə"** ödənişsiz şəri kurslar kollecinin (www.mahadsunnah.com) təsisçisi və rəhbəri, 80-dən çox dildə yayımlanan Facebook, İnstagram, Twitter və Telegram dini səhifələrinin nəzarətçisi, 80-dən çox dildə yayımlanan 500-dən çox dini kitab, buklet və elmi məqalənin müəllifi

**Şeyxin şəxsi səhifəsi:** www.alsarhaan.com

Tərcüməçi:

**İlqar Eyvazoğlu**

Mədinə İslam Universitetinin Hədis fakültəsinin məzunu, ilahiyyatçı.

Redaktor:

**Xaqan Abbaslı**

Mədinə İslam Universitetinin İslama dəvət və İslamın əsasları fakültəsinin məzunu, ilahiyyatçı.

Azərbaycan dili üzrə redaktor:

**Cavanşir Muradov**

Filologiya üzrə fəlsəfə doktoru, dosent.

Dizayner:

**Mehman Hidayətov**

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

## Ön söz

Hər bir ibadətin məqsədi olduğu kimi, oruc ibadətinin də məqsədi var.

Uca Allah Qurani Kərimdə buyurub:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ
لَعَلَّكُمْ تَتَّقُونَ ﴿١٨٣﴾

**“Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə (Allahdan) qorxasınız.”**[1]

Allah qorxusunu əldə edib günahlardan təmizlənmək üçün Allah bizə orucu vacib edib.

---

[1] əl-Bəqərə surəsi, 183.

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub: ***"Kim Ramazan orucunu imanla və savab qazanmaq üçün tutarsa, onun etdiyi günahlar bağışlanar"***.[2]

Ramazan ayının oruclarını düzgün tutmaq üçün bəzi ehkamları bilmək lazımdır. Bu kitabçada Ramazan ayının ehkamlarını qeyd etmişik.

Allah oxucular üçün faydalı və bərəkətli etsin. Həmd və şükür aləmlərin Rəbbi olan Allaha məxsusdur.

Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə və bütün əshabələrinə Allahın salavatı və salamı olsun!

*Mədinə İslam Universitetinin məzunu*
**İlqar Eyvazoğlu**

---

[2] Buxari, 38 – Muslim, 760.

## RAMAZAN AYINDAN SÜNNƏ İBADƏTLƏRİ İLƏ İSTİFADƏ ET

### Orucun savabını qazanıb ruhunu hiss etmək istəyirsənsə, mütləq onun sünnələrinə əməl et

**Bu sünnələrdən bəziləri bunlardır:**

❖ Gecənin sonunda bir qurtum su ilə olsa belə, səhur etmək.

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub:

***"Səhur yeməyi bərəkətdir. Sizlərdən biriniz bir qurtum su içməklə olsa belə, onu tərk etməsin. Çünki uca Allah və mələkləri səhur edənlər üçün salavat edirlər."*** [3]

❖ Azan verildikdən sonra təzə (rütəb) xurma(sı) ilə iftarı tezləşdirmək. Təzə xurma tapılmasa, quru xurma ilə, o da tapılmasa, hədisdə gəldiyi kimi, bir qurtum su ilə iftar etmək.

---

[3] Səhih hədis, İmam Əhməd bin Hənbəl, "Musnəd" əsəri, 11086.

❖ İftar edən zaman peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) bu duasını oxuyaraq dua etmək:

**“Zəhəbəzzaməu vab-təllətiluruq**
**və səbətəl əcru inşəAllah”**[4]

*“Susuzluq getdi və damarlar islandı.*
*Allah istəsə, savab yazıldı”*

❖ Oruc tutanlara iftar vermək. Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) belə dedi:

***“Kim bir orucluya iftar verərsə, oruc tutanın savabından azalmamaq şərti ilə onun savabının eynisini qazanır.”***[5]

---

[4] Həsən hədis, “Sunənu Əbi Davud”, 2357.
[5] Həsən hədis, “Sunənu ət Tirmizi”, 807.

- Ramazanda ümrə etmək. Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub:

***"Ramazanda ümrə etmək həcc etməyə bərabərdir."***[6]

Ramazan ayının gündüz saatlarında zikr və dua etmək, Quran oxumaq və müxtəlif xeyir işlərlə məşğul olmaq.

Ramazan ayı imanın artması, cənnəti qazanmaq və cəhənnəmdən qurtulmaq üçün fürsətdir.

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub:

***"O kəsin burnu yerlə sürünsün ki, Ramazan ayına daxil olub, Ramazan ayı çıxdı bağışlanmamış halda qaldı."***[7]

---

[6] Səhih hədis, Buxari və Muslimin rəvayəti.
[7] Həsən hədis, "Sunənu ət Tirmizi", 3545.

# ORUCUN RÜKNÜ (TƏMƏLİ)

## Oruc İslamın dördüncü təməlidir

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub: ***"İslam beş təməl üzərində qurulub."*** Allahın rəsulu (Allahın ona salavatı və salamı olsun) sadaladıqlarının arasında Ramazan orucunu da qeyd etdi.[8]

Ramazan orucu sağlam düşüncəli, həddi-büluğ yaşına çatmış, oruc tuta bilən, səfərdə olmayan hər bir müsəlmana vacibdir.

Ramazan ayının hilalının (yeni doğulmuş ay) görünməsi gözlə və ya müasir cihazlarla təsdiq olunur. Ramazan ayının hilalı görünməzsə, Şaban ayı 30 gün olur.

[8] Buxari və Muslimin rəvayəti.

**Astronomik hesablamaya isə etibar olunmur.**

Niyyət gecədən edilməlidir və orucun ardıcıllığını pozan bir səbəb olmadığı halda, ayın əvvəlindən bir niyyət edilməsi kifayətdir. Oruc pozulduğu halda niyyət təzələnməlidir.

Orucluya sübh açılandan gün batana qədər orucu pozan əməllərdən çəkinmək vacibdir.

Hər kim gecənin davam etdiyini və sübhün açılmadığını düşünərək yeyib-içərsə, eləcə də günəşin batdığını zənn edərək yeyib-içərsə, sonra səhv etdiyi ona aydın olarsa, orucu doğru olar.

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub: ***“Allah mənim ümmətimdən səhvi, unutqanlığı və məcburiyyət altında qalıb etdiyi əməli bağışlayır.”***[9]

[9] Səhih hədis, “Sunənu ibni Məəcə”, 2045.

# ORUCU BATİL EDƏN ƏMƏLLƏR

## Oruc, sübh açılandan gün batana qədər yemək, içmək və cinsi yaxınlıqdan çəkinməklə Uca Allaha ibadət etməkdir

Müsəlmanın onun orucunu batil edən əməllərdən qoruması vacibdir.

**Orucu batil edən əməllər bunlardır:**

- Yemək, içmək və bədən qidalandıran müxtəlif vasitələrdən istifadə etmək.
- Qidalandırıcı inyeksiya (iynə) əzələdaxili
- Qidalandırıcı inyeksiya və infuziyalar (damardaxili iynə və sistemlər)[10] və qan köçürmə.
- Qəsdən qusmaq.
- Cinsi əlaqə, sevişmə və ya masturbasya və s. kimi yollarla məninin ifrazı.

---

[10] Aydınlıq üçün qeyd edək ki, qidalandırıcılar 2 cür olur:
1) əzələdaxili
2) damardaxili. Hər ikisi orucu pozur.

- ❖ Yuxuda ikən məni ifrazı isə, yekdil rəyə görə orucu batil etmir. Üstün olan rəyə görə məzinin[11] də hökmü belədir.
- ❖ Bilmədən qusmaq orucu batil etmir.

Çünki Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurmuşdur: ***"Kim bilməyərək qusarsa, onun qəzası yoxdur. Kim qəsdən qusarsa, qəza tutmalıdır."***[12]

- ❖ Həcamət[13] və qan vermək.

Kimə gündüz (oruclu halda) qan vermək lazımdırsa, orucunu açsın və onun yerində bir gün qəza etsin.

- ❖ Yekdilliklə orucu batil edən şeylər arasında, günün istənilən anında gələn aybaşı qanı və ya doğuşdan sonrakı (nifas)[14] qanıdır.

---

11 Yaxınlıq etmək və şəhvət vaxtı ifraz olunan ağ, yapışqan maye. O, həzz hissi, təzyiq və sürətlə ifraz olunmur. İfraz olunduqdan sonra, məni ifrazında olduğu kimi, taqətsizlik halı baş vermir. Bu hal kişi və qadınlarda baş verir. Hər iki cinsdə, daha çox isə qadınlarda olur.

12 Əbu Davud və ət Tirmizinin rəvayəti.

13 Qanalma.

14 Doğuşdan sonra , təqribən 40 gün çəkən qanaxma dövrü. Tibbi adı zahılıqdır.

Bu hal günbatandan bir dəqiqə əvvəl olsa belə orucu batil edir.

Kim hökmü bilmədən, unudaraq və ya məcburiyyət qarşısında orucunu pozan bir iş görərsə, orucu doğrudur. Yalnız aybaşı və nifasdan başqa, çünki onlar hər bir halda orucu batil edir.

## Orucun bəzi vacib və qadağan etdiyi əməllər var.

Uca Allah oruc ayələrinin sonunda buyurur:

تِلْكَ حُدُودُ ٱللَّهِ فَلَا تَقْرَبُوهَا ۗ كَذَٰلِكَ يُبَيِّنُ ٱللَّهُ ءَايَٰتِهِۦ لِلنَّاسِ
لَعَلَّهُمْ يَتَّقُونَ ﴿١٨٧﴾

**“Bunlar Allahın sərhədləridir, onlara yaxınlaşmayın! Allah Öz ayələrini insanlara belə bəyan edir ki, bəlkə (Ondan) qorxalar.”**[15]

[15] Əl Bəqərə surəsi, 187.

## ORUCU POZMAĞA ÜZRLÜ SƏBƏBLƏR

**Bu hallarda orucunu aça bilərsən:**

Uca Allah buyurur:

يُرِيدُ ٱللَّهُ بِكُمُ ٱلْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ ٱلْعُسْرَ ﴿١٨٥﴾

**"Allah sizin üçün çətinlik istəməz. O, sizin üçün asanlıq istəyər."**[16]

Allah qulları üçün çətinliyi aradan qaldırmış, onların halına və üzürlərinə görə bir çox hökmlərdə onlar üçün asanlıq yaratmışdır.

**Bura oruc da daxildir:**

❖ Ramazan gündüzlərində unudaraq yemək yeyənin sıxıntısını aradan qaldırmışdır.

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurdu: ***"Kim oruclu ikən unudaraq yeyərsə, orucunu tamamlasın. Çünki onu yedizdirən və içizdirən Allahdır."*** [17]

---

[16] Əl Bəqərə surəsi, 185.

[17] Buxari və Muslimin rəvayəti.

- ❖ Kim sağalmayan xəstəlik və ya qocalıq səbəbindən oruc tuta bilməsə, tutmadığı orucun əvəzinə hər gün üçün bir kasıbı yedizdirmək şərti ilə orucunu açır.
- ❖ Eləcə də, aybaşı və nifas olan qadına da orucunu pozmaq vacibdir.
- ❖ Hamilə və ya süd verən qadın özünə və ya övladına zərər verməkdən qorxarsa, özünü və körpəsini qorumaq üçün oruc tutmaya bilər.
- ❖ Eləcə də səfər edən, əgər səfərində namazını qısalda bilərsə, bu halda oruc tutmaya bilər.

Yuxarıda sadalanan hallarla üzləşən hər kəs Ramazandan sonra tutmadıqları günlərin sayı qədər oruc tutmalıdırlar.

Uca Allah buyurur:

فَمَن كَانَ مِنكُم مَّرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ ﴿١٨٤﴾

**“Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda (oruc tutmalıdırlar).”**[18]

---

[18] Əl Bəqərə surəsi, 184.

Bir anda yaranan və sağalmasına ümid edilən xəstəliklərin üç halı var:

1. Oruc tutmaq onun üçün çətin deyil və ona zərər vermir. Bu halda oruc tutmaq ona vacibdir.

2. Oruc tutmaq onun üçün çətindir, amma ona zərər vermir. Bu halda oruc tutmaq bəyənilmir. O, uca Allahın izni ilə orucunu açır.

3. Oruc tutmaq ona zərərlidir. Bu halda oruc tutmaq ona haramdır.

# FİTRƏ ZƏKATI

## Orucunu naqislik və eyblərdən necə təmizləmək olar?

Yoxsulların və kasıbların qəlbinə necə xoşbəxtlik gətirə bilərsən ki, onlar da sənin sevindiyin kimi bayramda sevinsinlər?

**Bu rəvayət haqda düşün!**

Səhabə İbn Abbas (Allah ondan razı olsun) buyurub: *"Allahın Rəsulu (Allahın ona salavatı və salamı olsun) fitrə zəkatını oruc tutanın orucunu boşboğaz və ədəbsiz sözlərdən təmizləmək və yoxsulları yedizdirmək üçün vacib etmişdir."*[19]

Fitrə zəkatını hər bir müsəlmanın özü və himayəsində olanlar (məsələn, həyat yoldaşı, övladları və s.) üçün çıxarması vacibdir. Bu zəkat

[19] Səhih rəvayət, "Sunənu əbi Davud", 1609.

özünün və ailəsinin gündəlik ehtiyacından artıq yeməyi olana vacib olur. Beləliklə, fitrə zəkatı çıxartmaq üçün maddiyyatda müəyyən həddə çatmaq şərt deyil.[20] Fitrə zəkatı dənli bitkidən[21] və insanların əsas qida məhsullarından[22] bir "sa"[23] miqdarında çıxmalıdır.

Səhabə İbn Ömər (Allah ondan razı olsun) rəvayət edir ki, Allahın Rəsulu (Allahın ona salavatı və salamı olsun) buyurmuşdur:

***"Allahın rəsulu xurma və ya arpadan çıxan bir "sa"***[24] ***miqdarında fitrə zəkatını müsəlmanlardan kölə və azad, kişi və qadın, cavan və qocaya verməyi vacib buyurmuşdur. Onu camaat namaza çıxmazdan əvvəl paylamağı əmr etdi."***[25]

---

[20] Vacib zəkat çıxartmaq üçün isə maddiyyatda müəyyən həddə çatmaq şərtdir.
[21] Düyu, mərcimək, un, qarabaşaq (rus. "qreçka") və s.
[22] Makaron, vermeşil, xurma və s.
[23] Təqribən 3-3.5 kq, 4 ovuc.
[24] Dırnaqlar tərcüməçinindir.
[25] Buxari və Muslimin rəvayəti.

Fitrə zəkatını Ramazan ayının son gününün[26] günbatanından çıxartmaq vacibdir.

- ❖ Bayram namazından əvvəl çıxartmaq daha fəzilətlidir.

- ❖ Bayrama bir-iki gün qalmış, yəni iyirmi səkkizinci gecədən başlayaraq çıxartmaqda problem yoxdur. Çünki hicri ayı iyirmi doqquz və ya otuz gündən ibarətdir.

- ❖ Bayram namazından sonraya onu saxlamaq olmaz.

Kim bayram günü[27] fitrə zəkatını üzürsüz səbəbdən çıxarmazsa, günah etmiş olur və ona qəza etmək vacibdir. Buna görə də onu könül xoşluğu ilə və savabın Allahdan umaraq verməyə tələs.

---

[26] Oruc tutulan son gün.
[27] Bayram namazına qədər.

Uca Allah buyurur:

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَنفِقُواْ مِمَّا رَزَقۡنَٰكُم
مِّن قَبۡلِ أَن يَأۡتِيَ يَوۡمٞ لَّا بَيۡعٞ فِيهِ وَلَا خُلَّةٞ وَلَا
شَفَٰعَةٞۗ وَٱلۡكَٰفِرُونَ هُمُ ٱلظَّٰلِمُونَ ٢٥٤

**"Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün gəlməmişdən öncə sizə verdiyimiz ruzidən (Allah yolunda) xərcləyin! Kafirlər isə zalımdırlar."**[28]

*Sonda Allahın salavatı və salamı Muhəmmədə,*
*onun ailəsinə və səhabələrinin üzərinə olsun!*

[28] Əl Bəqərə surəsi, 254.

# MÜNDƏRİCAT


Ön söz ........................................................................ 4

Ramazan ayından sünnə ibadətləri ilə istifadə et...... 6

Orucun rüknü (təməli) .............................................. 9

Orucu batil edən əməllər ......................................... 11

Orucu pozmağa üzrlü səbəblər................................ 14

Fitrə zəkatı ................................................................. 17

## Hörmətli oxucular!

Şəkk yoxdur ki əlinizdəki bu kitabça insan əməyinin bəhrəsidir. Ona görə də kitabçada səhvlərin olması qaçılmazdır.

**Xahiş edirik ki,**
**kitabça haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:**
kitabpayla@gmail.com

Rəbbinin yoluna
DƏVƏT ET

# "Ramazan ayı sizlərə yetişdi"

Uca Allah buyurur:

"Ey iman edənlər! Sizdən öncəkilərə oruc vacib buyurulduğu kimi sizə də, vacib buyuruldu ki, bəlkə təqvalı olasınız".

*Əl-Bəqərə, 183*

Peyğəmbər ﷺ deyib:

"Kim Ramazan orucunu imanla və mükafatını Allahdan umaraq tutarsa, onun keçmiş günahları bağışlanar".

*Buxari, Muslim*

Rəbbinin yoluna
DƏVƏT ET

